

*64 yaşlı qadın qaynaqçı:*

# "Qadın hara, qaynaq hara?.."

## "Üzərimdə çox işləyib bu peşənin peşəkarına çevrildim"

Cəmiyyətimizdə formalaşmış stereotiplərə görə, bəzi peşələrlə yalnız qadınlar, bəziləri ilə də kişilər məşğul olur. Məsələn, bənna, çilingər, təmirçi, qaynaqçı, traktorçu, bağban və s. kişi, toxucu, tikişçi, dərzi, xalçaçı və s. isə qadın peşələri hesab edilir. Müsahibimiz isə illərdir ki, 64 yaşlı qaynaqçı qadındır. "Azərbaycan müəllimi" Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin qaynaqçı qrupunun istehsalat təlimi ustası Qətibə Əhmədovanı oxuculara təqdim edir.

**"Qaynağın sirlərini bir az da onlardan öyrəndim"**

Qətibə Əhmədova 1961-ci ildə Lənkəran rayonunun Xolmili kəndində anadan olub. 1987-ci ildən Lənkəran şəhərində yaşayır. Kolleci qırmızı diplomla bitirən müsahibimiz 41 ildir ki, pedaqoji fəaliyyətlə məşğuldur: "1980-ci ildə Bakı Politexnik Texnikumunun Mexanika fakültəsinin "Metalşünaslıq və metalların termiki emalı" ixtisası üzrə təhsil almağa başladım. 1984-cü ildə ovaxtkı 113 nömrəli Texniki Peşə Məktəbində işə qəbul oldum. Orada ixtisas fənn müəllimi kimi çalışdım. İxtisasımın uyğun gəldiyi üçün qaynaqçı qrupuna istehsal təlimi ustası təyin edildim. Mənə 1 illik qrup verildi. Daha sonra ixtisas fənn müəllimlərinin diaqnostik qiymətləndirilməsində iştirak edərək yüksək nəticə göstərdim. Məsuliyyətim daha da artdı. Mərkəzimizdə əvvəlki illərin məzunları ilə tez-tez təlimlər təşkil olundu, qaynağın sirlərini bir az da onlardan öyrəndim. Üzərimdə çox işləyib bu peşənin peşəkarına çevrildim. 2017-ci ildən indiyədək qaynaqçı qrupunun istehsalat təlimi ustası işləyirəm. Bəzi nəzəri dərsləri də tədris edirəm".

Tələbələri ilə çoxsaylı sosial layihələr həyata keçirən müsahibimiz şəhid ailələrini də unutmadıqlarını vurğulayır: "Tələbələrimin qaynaqçı peşəsinə marağı çox böyükdür. Qaynaq etməyi öyrənən kimi qonşu və qohumları üçün qaynaq işləri görürlər. Məktəbimizdə onlar üçün kifayət qədər şərait yaradılıb. Qaynaqçı qrupunun hazırladığı avadanlıqlar müxtəlif tədbirlərdə nümayiş etdirilib. Şəhərimizin parkları üçün oturacaqlar, tullantı qabları, eləcə də yelləncəklər hazırlamışıq. Uşaq bağçalarında bir çox layihələr həyata keçirmişik. "Tikdim ki, izim qala", "Uşaqlardan uşaqlara", "Sehrli peşəm" və s. sosial layihələr reallaşdırmışıq. "Tikdim ki, izim qala" layihəsini Lənkəran şəhər İcra Hakimiyyəti və Lənkəran-Astara Regional Təhsil İdarəsi ilə birgə həyata keçirmişik. 30-a yaxın sosial baxımdan həssas ailəyə müəyyən avadanlıqlar - şkaf, çarpayı və s. vermişik. "Uşaqlardan uşaqlara" layihəsi çərçivəsində peşə məktəbimizin tələbələri bağça uşaqlarına müxtəlif hədiyyələr təqdim edib. Bağçaların həyətlərində kiçik bağlar salmışıq, su çəkmişik, yelləncəklər, quş yuvaları hazırlamışıq. Röyal İbrahimov və Rameş Zəkiyev adlı iki məzunum şəhid olub. Onları, ümumiyyətlə, digər şəhidləri və ailələrini də unutmuruq. Şəhid ailələrinin həyətlərində sitrus ağacları əkmişik, övladları üçün yelləncəklər düzəltmişik. Şəhidlərin məzarüstü abidələrinin kənarına



yerləşdirmək üçün oturacaqlar da hazırlamışıq".

**"Kadrlarımız işlə təminatda çətinlik çəkmirlər"**

Qaynaqçı peşəsinin kifayət qədər perspektivli olduğunu deyən Qətibə müəllim bu işə həmişə ehtiyac olacağını düşünür: "Məzunlarımızın əksəriyyəti işlə təmin olunur. Bu işə ancaq həvəsi olanlar maraq göstərir. Məzunlarımızdan ölkəmizin müxtəlif şəhərlərində, xarici ölkələrdə belə işləyənləri var. Hazırladığımız kadrlar işlə təminatda çətinlik çəkmirlər".

**"Peşəmlə fəxr edirəm"**

Yeni binaya köçəcəklərini xatırladan Qətibə müəllim Peşə Mərkəzinə başqa rayonlardan da çoxlu tələbə gəldiyini qeyd edir: "Qaynaqçı peşəsi üzrə tədris materiallarının sayının artmasını istəyərdik. Ümumiyyətlə, son dövrlərdə peşələrə maraq çox artıb. Hazırda mərkəzdə təhsil alan qadınların sayı 200 nəfərdir. Bir müddət qadınlar bu peşəyə gəlməyə çəkinirdilər. İndi isə belə deyil, oğlanlarla bərabər qızlar da qaynaqçı, eləcə də digər peşələri öyrənməyə səy göstərirlər".

Müsahibimiz əlavə edir ki, yeni qəbul olan tələbələri qaynaqçı müəllimlərinin qadın olduğunu biləndə çox təəccüblənirlər: "Xüsusən yeni gələn tələbələr əvvəl buna çox təəccüblənsələr də, qısa müddət sonra işimi görüb bunu adi qəbul edirlər. "Qadın hara, qaynaq hara?" deyənlər də çox olur. İzah etməyə çalışıram ki, istənilən adam istənilən peşəni öyrənərək onun peşəkarına çevrilə bilər. Bir az marağın olsa, öyrənmək heç də çətin deyil. İndi bu iş mənim üçün çox sadədir. Bu peşə ilə məşğul olmağımla fəxr edirəm".

**Nilufər HACILI,**
*Lənkəran-Astara üzrə regional təmsilçi*